SLOVAKIYA RESPUBLIKASI HÖKUMƏTI
İLƏ AZƏRBAYCAN RESPUBLIKASI HÖKUMƏTI ARASINDA
IQTISADI ƏMƏKDAŞLIQ HAQQINDA
SAZİŞ

Preambula

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Slovakiya Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti,

İki ölkə arasındakı dostluq əlaqələrini təsdiqləyərək,

Mövcud iqtisadi əlaqələrin davam etdirilməsinin və gücləndirilməsinin əhəmiyyətini və vacibliyini anlayaraq,

İqtisadi əməkdaşlığın bərabərlik və qarşılıqlı mənfəət əsasında inkişafını təşviq etməyi arzulayaraq,

Slovakiya Respublikasının və Azərbaycan Respublikasının milli qanunvericiliklərinə uyğun olaraq və onların beynəlxalq öhdəliklərini nəzərə alaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişin məqsədi

1.1. Sazişin məqsədi Razılığa gələn Tərəflər arasında bərabərlik və qarşılıqlı mənfəət əsasında və Razılığa gələn Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq iqtisadi əməkdaşlığı inkişaf etdirmək və gücləndirməkdir.

1.2. Razılığa gələn Tərəflər iqtisadi-ticarət münasibətlərini bir-birilərinin suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında həyata keçirirlər.

1.3. Əməkdaşlıq aşağıdakı sahələri əhatə edir, lakin bunlarla məhdudlaşmır:

a) sənaye və tikinti sənayesi;

b) nəqliyyat və logistika;

c) investisiyaların təşviqi;

d) energetika və mədən sənayesi;

e) turizm;

f) kiçik və orta sahibkarlıq subyektləri;

g) kənd təsərrüfatı və meşəçilik;

h) ətraf mühitin mühafizəsi və su ehtiyatlarının idarəedilməsi;

i) telekommunikasiya və informasiya texnologiyaları;

j) iqtisadi əməkdaşlığın qarşılıqlı razılaşdırıla biləcək digər sahələri.

Maddə 2

Əməkdaşlıq formaları

2.1. Razılığa gələn Tərəflər:

a) iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafı üçün bütün zəruri tədbirləri görürlər,

b) hər iki ölkədə iqtisadi vəziyyət, qaydalar, iqtisadi proqramlar, biznes fəaliyyəti və qarşılıqlı maraq doğuran digər müvafiq məlumatlar haqqında məlumat mübadiləsi üçün bütün zəruri tədbirləri görürlər,

c) ikitərəfli iqtisadi əməkdaşlığa mane olan problemləri müəyyənləşdirir və bu problemlərin həll olunması üçün tədbirlər təklif edirlər.

2.2. Razılığa gələn Tərəflər:

a) investisiya fəaliyyətini, ikitərəfli iqtisadi əməkdaşlığı, birgə müəssisələrin yaradılmasını və hər iki ölkə ərazisində şirkətlərin nümayəndəliklərinin və filiallarının açılmasını təşviq edirlər;

b) hər iki ölkədə keçiriləcək beynəlxalq yarmarka və sərgilərdə hər iki ölkənin özəl sektorunun iştirakını təşviq edirlər;

c) işgüzar nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini dəstəkləyir və təşviq edirlər;

d) müvafiq regional və yerli müəssisələri, peşəkar palataları, biznes assosiasiyalarını və özəl sektoru iqtisadi əməkdaşlığın müxtəlif sahələrində layihələrin həyata keçirilməsi ilə bağlı mövcud imkanları araşdırmağa təşviq edirlər.

Maddə 3

Birgə İşçi Qrupu

3.1. Razılığa gələn Tərəflər ikitərəfli iqtisadi əməkdaşlığı əlaqələndirmək və təşviq etmək məqsədilə Razılığa gələn Tərəflərin müvafiq qurumlarının nümayəndələrindən ibarət olan İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Slovakiya Birgə İşçi Qrupunu (bundan sonra "Birgə İşçi Qrupu" adlandırılacaq) təsis edirlər. Birgə İşçi Qrupu iqtisadi əməkdaşlığı aşağıdakılar vasitəsilə əlaqələndirir və inkişaf etdirir:

a) bu Sazişin məqsədlərinin yerinə yetirilməsinin izlənilməsi,

b) bu Sazişdə müəyyən olunmuş və ya sonradan Razılığa gələn Tərəflər arasında razılaşdırılan sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi,

c) bu Sazişə uyğun olaraq hər hansı sazişin və ya yaradılacaq layihənin icrası zamanı ortaya çıxacaq maneələrin aradan qaldırılması məqsədilə tövsiyələrin işlənib hazırlanması.

3.2. Birgə İşçi Qrupun görüşü zəruri olduqda, Razılığa gələn Tərəflərdən birinin müraciəti və digər Razılığa gələn Tərəfin həmin müraciəti qəbul etməsi əsasında, növbə ilə hər iki ölkədə keçirilir.

3.3. Razılığa gələn Tərəflərdən hər biri öz tərəfindən sədr təyin edir ("həmsədr" adlanacaq) və hər bir həmsədr Birgə İşçi Qrupunun öz tərəfi üçün katibini təyin edir.

3.4. İclasın tarixi və gündəliyi ev sahibliyi edən Razılığa gələn Tərəf tərəfindən təklif edilir və onun katibi iclasın qeydlərinin (protokolunun) hazırlanmasına məsul olur.

3.5. Hər bir Razılığa gələn Tərəf Birgə İşçi Qrupunun iclasları ilə bağlı öz nümayəndə heyətinin xərclərini qarşılayır.

Maddə 4

Beynəlxalq sazişlər

4.1. Bu Saziş Slovakiya Respublikası və ya Azərbaycan Respublikası ilə üçüncü tərəflər arasında bağlanmış qüvvədə olan digər beynəlxalq sazişlərdən irəli gələn hər hansı hüquqlara və öhdəliklərə, eləcə də hər iki ölkənin beynəlxalq təşkilatlara üzvlüklərindən irəli gələn hüquqlara və öhdəliklərə təsir etmir.

4.2. Bu Sazişin tətbiqi Slovakiya Respublikasının Avropa İttifaqına üzvlüyündən irəli gələn öhdəliklərə xələl gətirmir. Bununla əlaqədar, bu Sazişin müddəaları Avropa İttifaqı haqqında Müqavilə əsasında öhdəlikləri ləğv edəcək və ya onlara hər hansı şəkildə təsir edə biləcək şəkildə təfsir edilə və ya yerinə yetirilə bilməz.

Maddə 5

Fikir ayrılıqlarının həlli

Bu Sazişin təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı Razılığa gələn Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə diplomatik kanallar vasitəsilə həll edilir.

Maddə 6

Dəyişikliklər

Razılığa gələn Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Sazişə dəyişikliklər edilə bilər. Belə dəyişikliklər bu Sazişin ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilir və bu Sazişin 7-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minir.

Maddə 7

Qüvvəyəminmə, müddət və ləğv etmə

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən sonra 30-cu (otuzuncu) gün qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanır və Razılığa gələn Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Razılığa gələn Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində _____ 2021-ci il tarixdə iki əsl nüsxədə, hər biri slovak, Azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı olduğu təqdirdə ingilis dilindəki mətnə üstünlük verilir.

Slovakiya Respublikası	**Azərbaycan Respublikası**
Hökuməti adından	**Hökuməti adından**